**Səbinə İmanova**
**Magistrant**
**Azərbaycan Dövlət Mədəniyyət**
**və İncəsənat Universiteti**
**E-mail: curly_girl98@mail.ru**

***Bizim gələcəyə yönələn təşəbbüsümüz əsasən təhsil, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə bağlıdır. İlham Əliyev***

# Azərbaycanda qayaüstü incəsənət üzrə ilk innovativ muzey qurucusu Məlahət Fərəcovanın fəaliyyəti

**Xülasə**: Muzey texnologiyası müasir dövrdə muzey fəaliyyətinə yeni baxışlar sistemidir. Azərbaycanda bu sistemin ilk yaradılmasında Məlahət Fərəcovanın rolu əvəzsizdir.

Məqalədə Azərbaycanda ilk interaktiv muzeyin yaradılması və bu muzeyin yaradıcısı Məlahət Fərəcovanın mədəniyyətimizin tədqiqi və təbliği sahəsində gördüyü işlər haqqında məlumat öz əksini tapır.

**Açar sözlər:** Məlahət Fərəcova, muzey quruculuğu, ilk interaktiv muzey.

Müasir dövrdə texnologiyanın inkişafı muzey sahəsindən də yan keçməmişdir. Dünya muzey təcrübəsində ziyarətçi kütləsini artırmaq məqsədi ilə muzeylərdə texlologiyanın tətbiqi geniş vüsət almışdır. Ölkəmizdə isə innovativ muzey quruculuğu yeni formalaşır. Buna baxmayaraq, dövlətimizin diqqəti və qayğısının nəticəsi olaraq interaktiv muzeylərin sayı durmadan artmaqdadır. Bu sahədə önəmli işlərə imza atmış ilklər içərisində Məlahət Novruz qızı Fərəcovanın adını xüsusilə qeyd etmək lazımdır. Məlahət Fərəcovanın aktiv fəaliyyəti nəticəsində ölkəmizdə ilk dəfə interaktiv muzey inşa edildi və ziyarətçilərin istifadəsinə verildi. Avropa Şurasının nəzdində CARP – PRAT (Prehistoric Rock Art Trails / Cultural Routes of the Council of Europe) təşkilatının elmi komitəsinin eksperti, Rusiya Elmlər Akademiyası Arxeologiya İnstitutunun Paleoincəsənət Araşdırma Mərkəzinin YUNESKO Qayaüstü İncəsənət Abidələri layihəsinin məsləhətçisi, "İçərişəhər" Muzey Mərkəzinin direktor müavini, tarix üzrə fəlsəfə doktoru, dosent Məlahət Fərəcova ölkəmizdə muzey işi sahəsində bir çox yeniliklərə imza atmış, muzey işi sahəsində innovativ layihələrin irəli sürülməsində fəal iştirak etmişdir.

13 fevral 1958-ci ildə Bakı şəhərində anadan olan Fərəcova (Paşayeva) Məlahət Novruz qızı orta təhsilini 154 №-li məktəbdə almışdır. Məlahət Fərəcova 1976-cı ildə Azərbaycan Dövlət Pedoqoji İnstitutuna qəbul olmuş, 1981-ci ildə həmin ali məktəbin Tarix fakültəsini fərqlənmə diplomu ilə

bitirmişdir. İnstitutu bitirdiyi ildən əmək fəaliyyətinə başlayan Məlahət Fərəcovanın mənalı və yaradıcı ömrünün böyük bir hissəsi muzeylərlə əlaqədardır. 1988-ci ildən muzey sektoruna gələn Məlahət Fərəcova 1995-ci ilə qədər müxtəlif muzeylərdə məsul vəzifələrdə çalışmış, muzey işi sahəsində meydana gələn problemlərlə yaxından tanış olmuş, bu problemlərin müasir üsullarla həll edilməsində böyük əmək sərf etmişdir. Onun muzey fəaliyyətində 1988-1995-ci illərdə L.Kərimov adına Xalça və Dekorativ Tətbiqi sənət muzeyində beynəlxalq əlaqələr şöbəsinin müdiri vəzifəsində çalışmasının böyük rolu olmuşdur.

Hələ 1947-ci ildən tədqiq olunmağa başlayan Qobustan qayaüstü təsvirlərinin mahiyyəti ilə yaxından tanış olmaq və bu təsvirlərdə gizlənən sirləri aşkar etmək Məlahət Fərəcova üçün də maraqlı idi. Məlahət Fərəcova 1995-ci ildə Qobustan Milli Tarix Bədii qoruğunun direktoru vəzifəsinə təyin olunmuş, 20 il ərzində Qobustan Milli Tarix Bədii qoruğuna rəhbərlik etmiş, Qobustan qayaüstü təsvirlərinin araşdırılması işində yaxından iştirak etmişdir.

Açıq səma altında fəaliyyət göstərən bu muzeydəki qayaüstü təsvirlərin dünya ictimaiyyətinə tanıdılması sahəsində böyük işlər görən Məlahət Fərəcovanın bu səpkidə apardığı işlər öz səmərəli bəhrəsini vermişdir. 2007-ci ildə Qobustan qayaüstü təsvirlərinin YUNESKO Dünya Mədəni irs siyahısına daxil edilməsi işində Məlahət Fərəcovanın oynadığı rol əvəzsiz bir mahiyyət kəsb edir. Məlahət Fərəcova Qobustanın qayaüstü təsvirlərinin YUNESKO-nun irs siyahısına düşməsi üçün gərgin fəaliyyət göstərmiş, onun müvafiq məsələ ilə bağlı hazırladığı sənəd 2006-cı ildə YUNESKO-ya göndərilmiş, və 2007-ci ildə Qobustanın qayaüstü təsvirləri YUNESKO-nun irs siyahısına qəbul edilmişdir. Qobustan YUNESKO-nun dünya abidələri siyahısına daxil edildikdən və milli muzey statusu aldıqdan sonra qoruq-muzeyi ziyarətə gələnlərin sayı 50% həcmində artdı. Məlahət Fərəcovanın tədqiqatçılıq fəaliyyəti nəticəsində Qobustan abidələri milli status almış və tarixi abidələrin milli qeydiyyatında 26 nömrəli abidə kimi qeydə alınmışdır. M. Fərəcova Qobustanda bərpa işlərinin aparılmasının zəruriliyini də yaxından hiss edirdi, məhz onun səyi nəticəsində 2008-ci ildə Qobustanda bərpa işləri başlayır.

Məlahət Fərəcovanın aktiv fəaliyyətinin nəticəsi olaraq 2011-ci ildə inşa edilən Qobustan Milli Tarix Bədii qoruğu ölkəmizdə ilk dəfə olaraq interaktiv muzey kimi fəaliyyətə başladı. 16 mart 2012-ci ildə Qobustan Milli Tarix Bədii qoruğu muzeyinin yeni binası ictimaiyyətə təqdim olundu. Qoruğun yeni muzey binası Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən inşa edilmişdir. Qısa müddət ərzində Qobustan Dövlət Tarixi-Bədii Qoruğu açıq hava muzey-qoruğu kimi böyük şöhrət qazandı. Daş dövründən son orta əsrlərə qədər həyatı əks etdirən çoxsaylı maddi mədəniyyət nümunələri bu ərazidə müasir azərbaycanlıların əcdadları tərəfindən min illər boyu yaradılıb. Qobustan

mağara rəsmləri qədim dünyanın ən məlumatverici abidələridir. Elm adamları 6000-dən çox mağara rəsmini, 20 mağara və qədim yaşayış yeri, həmçinin 40 kurqan kəşf etdilər. Bu respublika əhəmiyyətli tədbirdə çıxış edən muzeyin direktoru Məlahət Fərəcova diqqətə çatdırdı ki, Qobustan Dövlət Tarixi-Bədii Qoruğunda inşa edilmiş muzey və inzibati kompleksin ümumi sahəsi 2 460 kvadratmetrdir. Muzeydə qoruq işçiləri üçün xidmət otaqları yaradıb. Burada kitabxana ilə yanaşı, foto laboratoriyası və tədqiqat şöbəsi fəaliyyət göstərir. Muzeyin sərgi salonları müxtəlif bölmələrdən ibarətdir. Məlahət Fərəcova muzeydə 45 tamaşaçı üçün 3D kinoteatr salonunun yaradıldığını da bildirdi. Müasir standartlar çərçivəsində yaradılan bu salon 7 səs gücləndiricisi, monitor və proyektor ilə təchiz edilmişdir. Burada 360 dərəcə dönən xüsusi bir aparat istifadə edərək istənilən abidəni incələmək olar. Muzey fondunda 100 mindən çox arxeoloji material toplanılmışdır. Ümumiyyətlə, Qobustan Milli Tarix Bədii qoruğu təkcə ölkəmizin deyil, bütün Qafqazın ilk interaktiv muzeydir.

1995-ci ildən İCOM və İCOMOS kimi nüfuzlu beynəlxalq təşkilatların üzvü olan Məlahət Fərəcovanın bütün bu fəaliyyəti beynəlxalq dairələr tərəfindən yüksək dəyərləndirilmiş, Qobustan Milli Tarix Bədii qoruğu interaktiv muzey kimi də öz fəaliyyətini yüksək şəkildə davam etdirirdi, məhz bu səbəbdən də 2013-cü ildə Avropa Şurası tərəfindən Qobustan Milli Tarix Bədii qoruğu Avromuzey mükafatına layiq görülmüşdür.

Bütün bunlarla yanaşı Məlahət Fərəcova bir sıra xarici ölkələrdə təcrübə mübadiləsi (Post Doctoral Edication) keçərək öz ixtisası üzrə mühazirələr söyləmişdir. Uzun müddət Qobustanda qayaüstü rəsmləri araşdıran M. Fərəcova 2015-ci ildən Rusiya Elmlər Akademiyası Arxeologiya İnstitutunun Paleoincəsənət Araşdırma Mərkəzinin YUNESKO Qayaüstü İncəsənət Abidələri layihəsi üzrə məsləhətçi kimi fəaliyyət göstərir. Fərəcova həmçinin 2016-cı ildə etibarən PRAT-*CARP* İbtidai Qayaüstü İncəsənəti Yolları (Prehistoric Rock Art Trails/ Cultural Routes of the Council of Europe) təşkilatının elmi komitəsinin 12 ekspert üzvündən biridir. Xatırladaq ki, bu təşkilat Avropa Şurasının nəzdində fəaliyyət göstərir.

2008-ci ildə iki ay ərzində ABŞ-da yerləşən Konnektikut Universitetində təcrübə mübadiləsi keçirən Məlahət Fərəcova müvafiq universitetdə qayaüstü incəsənətlə yaxından tanış olan mütəxəssislərlə də tanış olmuş, Qobustanın qayaüstü rəsmlərinin araşdırılması sahəsində onların təcrübəsindən yararlanmışdır. Məlahət Fərəcova xaricdən, xüsusilə də ABŞ-dan olan mütəxəssislərin Qobustanın araşdırılmasına cəlb olunması üçün böyük səy göstərmişdir.

Məlahət Fərəcova ilk dəfə olaraq 2004-cü ildə Qobustanda yerləşən qayaüstü rəsmlərin rəqəmsal fotoaparatla qeydə alınmasını həyata keçirtmişdir. Mərkəzi Asiya petroqrifləri bazasını yaratmaq məqsədilə YUNESKO-nun

eksperti təyin olunan M. Fərəcova ona həvalə edilən bütün işləri müvəffəqqiyyətlə yerinə yetirmişdir. Ölkəmizdə 3D formatda qayaüstü təsvirlərin öyrənilməsi və animasiyası da ilk olaraq M. Fərəcovaya aiddir. M. Fərəcova hətta Avropada müvafiq işi yerinə yetirən ikinci adamdır. M. Fərəcova tərəfindən 3D-nin tətbiqi nəticəsində Qobustanda 500-ə yaxın qayaüstü təsvirlər aşkar edilmişdir. Bu tip fotoçəkilişlərin Qobustanda 2004-cü ildən aparılmasına baxmayaraq Məlahət xanım 2014-cü ildə də yeni nümunələr tapmışdır. İtaliyada YUNESKO-nun keçirdiyi beynəlxalq əhəmiyyətli konfransda Məlahət xanımın yaratdığı qayaüstü incəsənətin elektron bazası digər bu tip müəssisələr üçün nümunə kimi göstərilmişdir. Məlahət xanım bir çox beynəlxalq tədbirlərdə ictimaiyyət qarşısında yüksək səviyyədə elmi məruzə edərək qayaüstü təsvirlər barədə geniş və müfəssəl məlumat vermişdir. M. Fərəcova 2004-cü ildə Mədəniyyət nazirliyi, YUNESKO-nun və Norveç krallığının mədəni irsinin direktratı tərəfindən dəstəklənən konfransda çıxış edib.

Araşdırmalarında M.Fərəcova Qobustan petroqliflərinin uzunmüddətli tədqiqatına əsaslanaraq erkən mezolit dövründən orta əsrlərə qədər qədim insanların mənəvi mədəniyyətini nəzərdən keçirir. Arxeoloq Məlahət Fərəcovanın bu yaxınlarda Çelyabinsk şəhərində beynəlxalq topluda nəşr olunan "Петролифы Гобустана как исторический источник для изучения архаических культов" adlı elmi məqaləsində əsas diqqət qədim Qobustandakı qayaüstü şəkillərdə aydın şəkildə təmsil olunan ov və mistik ayinlərin öyrənilməsinə yönəldilmişdir. Məlahət xanım məqalədə ən yeni texnologiyalardan və 3D proqramlarından istifadə edərək yeni mağara rəsmləri kəşf edildiyini vurğulayır. M. Fərəcovanın bu tədqiqatı eyni zamanda Qobustanın qədim ovçularının və balıqçılarının əsl dünyasına yenidən baxmaq üçün fürsət yaradır. Müəllif Qobustanın qədim ovçuları arasında sənətin əsas və dominant mövzusunun heyvanlar (öküzlər, ceyranlar və heyvanların digər şəkilləri) olduğunu, arxaik ovçu fiqurları və qayıqların təsvirləri ilə yanaşı, uzun illər boyu Qobustanın qayaüstü rəsmlərində əsas personaj olaraq qaldığını söyləyir. (1, s.62-73.)

Məlahət Fərəcova abidələrin qorunub saxlanılması istiqamətində 2003-cü ildə Azərbaycanda Qobustanın birinci rəqəmsal xəritəsinin hazırlanmasını təşkil etmişdir. Bundan əlavə Məlahət Fərəcova tərəfindən Qobustan abidələrinin birinci 3D modeli də hazırlanmışdır. Məlahət xanım 2004-cü ildə gecə fotofiksiyası zamanı sahə işləri apararkən yeni petroqliflər - iki dağ keçisinin fiqurlarını kəşf etdi. Heyvanlardan birinin şəklinə salınan bir neçə nöqtə xüsusi maraq doğurur. Şübhə yoxdur ki, bu heyvanlar xüsusi ayinlər və ya mistik fəaliyyətlər üçün nəzərdə tutulmuşdur.

Beynəlxalq əlaqələrin genişləndirilməsinə, milli mədəniyyətimizin dünya arenasında təbliğinə çalışan Məlahət Fərəcova fəaliyyət göstərdiyi müxtəlif muzeylərdə beynəlxalq tədbirlərin keçirilməsinə xüsusi səy göstərirdi. 29 yanvar 2015-ci ildə Məlahət Fərəcovanın təşkilatçılığı ilə Qobustan Dövlət Tarixi-Bədii Qoruğunda keçirilən "Qobustanın arxeoloji irsi dünya mədəni irsi kontekstində" adlı beynəlxalq tədbirdə muzey-qoruğun direktoru beynəlxalq təcrübənin mövcud sahəyə tətbiqindən söz açmışdır.

Məlahət Fərəcova Qobustan Milli Tarix Bədii qoruğu direktorluğundan sonra da muzey fəaliyyətini davam etdirməyə başlamışdır. 2016-cı ildə Məlahət Fərəcovanın Qala Dövlət Tarix Etnoqrafiya qoruğuna direktor təyin edilməsi muzeyşünas alim üçün sevindirici bir hal idi. 2016-2018-ci illərdə Qala Dövlət Tarix-Diyarşünaslıq Qoruğunun direktoru vəzifəsində çalışdığı müddətdə onun rəhbərliyi ilə qoruqda yeni interaktiv ustad dərsləri, tarix-etnoqrafik sərgilər və videokonfranslar təşkil edilmişdir.

Muzey işi üzrə səlahiyyətli vəzifələrdə çalışan Məlahət Fərəcova təkcə ona həvalə olunan işlə məşğul olmaqla kifayətlənmir, eyni zamanda elmi yaradıcılıqla da məşğul olmuşdur. Məlahət Fərəcovanın elmi araşdırmasında Qobustan qayaüstü rəsmlərinin tədqiqi böyük üstünlük təşkil edir. Belə ki, Məlahət Fərəcovanın 2007-ci ildə 128 səhifədən ibarət olan "Qobustan çalaları" adlı kitabı YUNESKO-nun Azərbaycan, Ermənistan, Belarus, Moldova Respublikası və Rusiya Federasiyası üzrə Moskva bürosunun maliyyə dəstəyi ilə, 2009-cu ildə 384 səhifədən ibarət olan "Azərbaycan qayaüstü incəsənəti" adlı kitabı isə "Aspoliqraf" nəşriyyatı tərəfindən çap olunmuşdur. Bununla yanaşı, "Qobustan çalaları", "Petroglyphs", "Qayaüstü incəsənət su çalarlar", "Qobustan" və s. adlı kitabları müxtəlif dillərdə nəşr olunmuşdur.

Beynəlxalq aləmlə mütəmadi olaraq əlaqə saxlayan Məlahət Fərəcova müvafiq beynəlxalq təşkilatlardan 20-dən çox mükafat və sertifikat almışdır. Beynəlxalq arenada mütəmadi olaraq milli mədəniyyətimizi təbliğ edən M. Fərəcova 15 beynəlxalq layihənin müəllifi olması səbəbindən beynəlxalq arenada tanınmış bir isimdir.

M. Fərəcova muzeylərdə çalışdığı müddət ərzində həm nəzəri fəaliyyətlə, həm də praktiki fəaliyyəti ilə həmahəng bir şəkildə məşğul olmuşdur. Belə ki, Məlahət xanım mütəmadi olaraq ali məktəblərdə tədbirlər təşkil etmiş, tələbə və müəllim heyətinə öz ixtisası üzrə seminar keçmiş, ustad dərslər təşkil etmişdir.

2019-cu ildə Nazirlər Kabinetinin 22 dekabr 2018-ci il tarixli 558 nömrəli qərarı ilə yaradılan İçərişəhər Muzey Mərkəzinin direktor müavini təyin olunmuş Məlahət Fərəcova bu vəzifənin də öhdəsindən layiqincə gəlir. Hazırda "İçərişəhər" Muzey Mərkəzində məsul vəzifədə çalışan Məlahət Fərəcova ona həvalə edilən yeni vəzifəni də yüksək səviyyədə icra edir. Biz inanırıq ki, ömrünü muzey işinə həsr etmiş Məlahət xanım gələcəkdə də muzey işinə böyük töhfələr verəcəkdir.

## Ədəbiyyat:

1. Фараджева М. Петролифы Гобустана как исторический источник для изучения архаических культов. st.62-73. Дизайн. Искусство. Промышленность. Челябинск. Номер: 5 Год: 2018,
2. Фараджева М. Некоторые заметки палеолитической датировки наскальных изображений женщини быков Гобустана / Инъясяня т вя мядянийййят проблемляри.АМЕА Мемарлыг вя инъясянят Институту. "Чашыоьлу", Б., 2001,
3. Фараджева М. Культ быка у древних охотников Азербайджана // Журн.Azerbaijan& Azerbaijanis, The Prezidium of Azerbaijan National Academy of Sciences, No 11-12 , 2002г., http:// www.ab.az.
4. Фараджева М. Географическая среда в Гобустане в древнейшие эпохи человеческой истории /Aspirantların və gənc tədqiqatçıların IX respublika elmi konfransının materilları, II, Б., 2003,
5. Fərəcova M. Azərbaycan qayaüstü sənəti. Bakı, "ASPOLİQRAF", 2009, 384 səh.
6. Axundov G, Axundov M, Qafaqz Albaniyasının tarixi və mədəniyyətindən bəzii faktlar “Qobustan” İncəsənət toplusu. B.1986

## Деятельность Малахат Фараджовой, основателя первого в Азербайджане инновационного музея наскального искусства. Резюме

Содержание: Музейные технологии - это система новых взглядов на музейную деятельность в современную эпоху.Роль Малахат Фараджовой в первом создании этой системы в Азербайджане незаменима.

Статья содержит информацию о создании первого интерактивного музея в Азербайджане и о работе, проделанной основателем этого музея Малахат Фараджовой в области исследования и популяризации нашей культуры.

**Ключевые слова:** Малахат Фараджовой, Музейная охрана, Первый интерактивный музей

# The activity of Malahat Farajova, the founder of the first innovative museum of rock art in Azerbaijan

## Summary

Museum technology is a system of new views on museum activities in modern age. The role of Malahat Farajova in the first creation of this system in Azerbaijan is indispensable.

The article contains information about the creation of the first interactive museum in Azerbaijan and the work done by the founder of this museum Malahat Farajova in the field of research and promotion of our culture.

**Key words:** Malahat Farajova, creation of museums, first interactive museum.